# SİYƏZƏN RAYONU




## Siyəzən rayonunun tarixi haqqında ümumi məlumat

Yaşadıgımız bölgənin ərazisində vaxtilə Ağ Siyəzən və Qara Siyəzən adında kəndlər mövcud olmuşdur. Siyəzən sözünün yozumu ilə bağlı ehtimallardan birində deyilir ki, Siyəzən tat dilində "siyahzən", yəni "qaravuran","ovçu"deməkdir.

Siyəzən şəhərinin əvvəlki adı Qızılburun olubdur. 1-ci Bakı şollar su kəməri çəkiləndə işçi qüvvəsi kimi ətraf kəndlərdən bura adamlar köç edirlər. Qızılburunun yaşayış mərkəzinə çevrilməsində "Qızılburun" dəmiryolu stansiyasının böyük rolu olmuşdur. Beləliklə, zaman ötdükcə, stansiyada işləyənlər və su kəmərinin tikintisində çalışanlar Qızılburunda daimi sakinlərə çevrildilər.

1938-1939-cu illərdə indiki Siyəzən rayonunun ərazisində zəngin neft yataqlarının olması aşkar edilmiş və ərazidə ilk buruqlar qazılmışdır. Neft yataqlarının kəşfi bu yerlərin perspektivliyini artırmışdır. "Qara qızıl"ın sorağı ilə təkcə ətraf kəndlərdən deyil, qonşu Xızı, Şabran və Azərbaycanın ən ucqar bölgələrindən, həmçinin SSRİ-nin müxtəlif yerlərindən buraya işləməyə gələnlərin hesabına Siyəzən şəhəri sürətlə böyümüşdür. Ona görə də 1940-cı ilin fevral ayının 11-də Siyəzən rayonu ilk dəfə təşkil edilmişdir.

Neftə görə Siyəzən şəhərinə köç edənlər arasında müxtəlif millətlərin nümayəndələri də olmuşdur. Gələnlər içərisində ruslar sayca çoxluq təşkil etmişlər. Keçən əsrin 60-cı illərinə qədər ruslar burada kompakt halda yaşamışlar.

1959-cu ilin dekabr ayının 4-də Siyəzən rayonu ləğv edilərək bir müddət Abşeron rayonuna, daha sonra Şabran rayonunun tərkibinə verilmişdir. Buna baxmayaraq Siyəzən şəhərində xüsusi evlərin və neftçilər üçün tikilən beşmərtəbəli yaşayış binalarının sayı çoxalmış və əhali getdikcə artmışdır.

Ulu Öndər Heydər Əliyevin Siyəzən şəhəri yaxınlığında Siyəzən Broyler Fabrikinin tikilməsi barədə təşəbbüsü şəhərin daha da böyüməsində əsas rol oynamışdır. Məhz bu fabrikin fəhlələri üçün beşmərtəbəli yaşayış binaları, məktəb, uşaq bağçası və sair infrastruktur binaları tikilmiş, Siyəzən şəhərinin siması daha da gözəlləşmişdir. Nəhayət 1992-ci il aprel ayının 2-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının qərarı ilə Siyəzən rayonu 1959-cu il sərhədləri daxilində yenidən bərpa olunmuşdur.

| | |
|---|---|
| **Ərazisi** | **- 703 $km^2$** |
| **Əhalisi** | **- 42,06 min nəfər** |
| **O cümlədən:** | |
| **Məcburi köçkünlər** | **- 116 nəfər (30 ailə)** |
| **Qaçqınlar** | **- 235 nəfər (47ailə)** |
| **Əhalinin sıxlığı** | **- 1 $km^2$ -də 61 nəfər** |
| **Yaşayış məntəqələrinin sayı** | **- 34** |
| **O cümlədən:** | |
| **Şəhər** | **-1** |
| **Qəsəbə** | **-1** |
| **Kənd** | **-32** |
| **İnzibati ərazi dairəsi üzrə nümayəndəliklər** | **-11** |
| **Bələdiyyələr** | **-11** |
| **Siyəzən-Bakı məsafəsi** | **-103 km** |

# Coğrafi mövqeyi

Siyəzən rayonu Azərbaycanın şimalında, Böyük Qafqaz dağları ilə Xəzər dənizi sahilində olan Samur-Dəvəçi ovalığında yerləşir. Ovalığın cənub-şərqində yarımsəhra landşaftı, dağətəyi hissələrdə isə boz-çəmən, şabalıdı-qəhvəyi, qismən qara torpaqlar yerləşməklə, meşə-çəmən landşaftı xarakterikdir. Ərazisi əsasən neft və təbii qaz, həmçinin əhəng daşı, çınqıl, gil və sair təbii ehtiyatlarla zəngindir.

Rayonda yarımsəhra və quru çöl iqlimi hakimdir. İqlimi mülayim isti və quru subtropikdir. Orta temperatur yanvarda 1,5ºC-dən 4ºC-yə, iyulda müvafiq olaraq 15ºC-dən 25ºC-yə qədərdir. Yayı quraq, isti keçir. İllik yağıntının miqdarı 300-650mm-dir. Rayon ərazisindən keçən Ata-çay və Gil-gilçay çayları dağlıq ərazilərdən başlanmaqla yağış və qismən qar suları ilə qidalanır. Siyəzən rayonu Azərbaycanın şimal zonasında respublikanın paytaxtı Bakı şəhərindən 100 km məsafədə Xəzər dənizinin sahilində yerləşməklə iki tərəfdən Xızı və Şabran rayonları ilə həmsərhəddir. Siyəzən rayonunun ərazisindən respublika əhəmiyyətli avtomobil və dəmir yolları keçir. Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi magistral avtomobil yolunun 40 kilometri, Bakı-Mahaçqala dəmir yolunun isə 47 kilometri rayon ərazisinə düşür. 2019-cu ildən yeni Bakı-Rusiya Federasiyası sərhədi avtomobil yolunun Siyəzən rayonu ərazisindən keçən hissəsinin tikintisinə başlanılmışdır.

1-ci və 2-ci Bakı şollar su kəmərləri, "Samur-Abşeron" və "Taxtakörpü – Ceyranbatan" su kanalları rayonun ərazisindən keçir.

Rayon ərazisində 4 dəmir yolu stansiyası fəaliyyət göstərir. Bunlar Qızıl-Burun, Zarat, Siyəzən, Gil-gilçay dəmir yolu stansiyalarıdır.

**2024-cü ildə Siyəzən rayonu üzrə iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 357323,7 min manat təşkil etmiş və əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 14,2 faiz artmışdır. Məhsul buraxılışının həcmi 2023-cü il ilə müqayisədə sabit qiymətlərlə tikinti sahəsində 73,9 faiz, informasiya və rabitə sahəsində 38,7 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 32,3 faiz, sənaye sahəsində 23,0 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 10,2 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 0,2 faiz artmışdır**.

**Siyəzən rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 2003-2024-cü illə müqayisədə 6,5 dəfə artaraq 357323,7 min manat olmuşdur.**

**2003-2024-cü il ərzində 6032 yeni iş yeri yaradılmışdır.**

Rayonda ilkin məlumatlara əsasən 2024-cü ildə hüquqi şəxslər üzrə 224 yeni iş yeri açılmış və 283 yeni fərdi sahibkarlıq subyektləri yaradılmışdır. İş yerlərindən 70,5 faizi yeni, 29,5 faizi mövcud müəssisə və təşkilatlarda yaradılmışdır.

**Rayon üzrə 3457 nəfər pensiyaçı vardır.**

2024-cü ildə 189 nəfərə əmək pensiyası təşkil edilmişdir.

2024-cü il ərzində 395 nəfərə yeni soosial müavinət və təqaüd üzrə təyinat aparılıb. Bu da əvvəlki illə müqayisədə 51,92 % artım təşkil edir(2023-cü ildə 260 nəfər)

Sosial müavinət və təqaüd alanların ümumi sayı 3202 nəfər təşkil etmişdir.

2024-cü ildə 272 aztəminatlı ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilmişdir.

**Rayon üzrə 25 umumtəhsil, 5 məktəbəqədər təhsil müəssisəsi vardır.**

Rayon üzrə 733 müəllim, 7280 şagird vardır. Müəllim/şagird nisbəti 10-dur. (10 şagirdə 1 müəllim)

**Rayonda 1 xəstəxana, 7 ambulator –poliklinika müəssisəsi vardır.**

Əhalinin hər 10 min nəfərinə 18,9 həkim, 39,8 orta tib işçisi düşür.

Əhalinin 10 min nəfərinə 17,7 xəstəxana çarpayısı düşür.

Əhalinin hər 10 min nəfərinə düşən ambulatoriya-poliklinika müəssisələrinin gücü 59,6-dır.

**Rayon üzrə 13 kütləvi kitabxana vardır, kitabxana fondu 61,5 min nüsxədir.**

1 muzey, 8 klub vardır.

8 tarixi-mədəniyyət abidəsi vardır. Dünya əhəmiyyətlisi yoxdur.

**Siyəzən şəhərində 4 mərtəbəli otel binası tikilb istifadəyə verilmişdir.**

- ərazi vahidlərinin 47%-i (16), ev təsərrüfatlarının 96,3%-i(7920)qazlaşdırılmışdır;

- ərazi vahidlərinin 70,5**%**-nin (23)elektrik təsərrüfatı yenilənmişdir;

-ərazi vahidlərinin 81,8 %-i yenidən qurulmuş avtomobil yolları ilə təmin olunmuşdur;

- Heydər Əliyev Mərkəzi yaradılmış, Ümummilli Liderin abidəsi ucaldılmış, Ulu Öndərin adını daşıyan "Heydər Əliyev Seyrəngahı" adlı park salınmışdır;

- Bayraq Meydanı, Gənclər Mərkəzi, Rayon Mərkəzi Xəstəxanası, Uşaq İncəsənət Məktəbi, RİH, YAP Siyəzən rayon təşkilatı, Dövlət Aqrar İnkişaf Mərkəzi, Suvarma Sistemləri İdarəsi, Elektrik Şəbəkəsi, Telekommunikasiya Qovşağı, Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi, İxrac Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsinin Siyəzən Regional Şöbəsi, Rayon Dövlət Yanğından Mühafizə Hissəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Siyəzən rayon bölməsi, Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin Siyəzən Regional Şöbəsi üçün yeni inzibati binalar tikilmişdir.

- Rayon Mədəniyyət Mərkəzi, Poliklinika binası əsaslı təmir edilmiş, Heydər Əliyev Mərkəzi hazırda əsaslı olunur.

- Tutumu 42 min ton olan taxıl anbarı,"Zarat Yem" MMC, "Aqroservis" ASC-nin rayon filialı, "Siyəzən-Broyler" ASC, "Polimer Sənaye Parkı" MMC, "Merit Brand" MMC,"FREŞ QROUP" MMC(giləmeyvə istehsalı) və 1 otel fəaliyyət göstərir;

- əlil və şəhid ailələri üçün 16 mənzilli 1 yaşayış binası,17 fərdi ev, təbii fəlakət nəticəsində zərər çəkmiş ailələr üçün 5 fərdi ev tikilmişdir;

- "Siyəzən şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması"

layihəsinin icrasına 2011-ci ildə başlanılmış və ölkə başçısının iştirakı ilə 18.07.13-cü ildə Siyəzən şəhərinə suyun verilməsi mərasimi keçirilmişdir. Şəhərdə104km içməli su,

86,5km kanalizasiya şəbəkəsi inşa edilmiş, kanalizasiya sularının axıdılması üçün "Sutəmizləyici qurğu" tikilib istifadəyə verilmişdir;

- 25 ümumtəhsil müəssisəsindən 19-da (76 %) təmir-tikinti işləri aparılmış, o cümlədən 15-i inşa, 1-i əsaslı təmir olunmuş və 3 modul tipli məktəb quraşdırılmışdır.Cari ildə (Təhsil Nazirliyinin məlumatı) Siyəzən şəhər 4 saylı tam orta

məktəbi (550 şagird yerlik), növbəti ildə Yenikənd kənd tam orta məktəbi (432 şagird yerlik) üçün yeni binalar tikilməsi və ya təmiri nəzərdə tutulmuşdur.

**Mövcud istehsal sahələri (sənaye məhsulları üzrə)**

| **İstehsal müəssisəsinin adı** | **İstehsal növü** | **Fəaliyyəti** |
|---|---|---|
| “Siyəzənneft” NQÇİ | Neft-qaz çıxarılması | Fəaliyyət göstərir |
| Magistral Qaz Kəmərləri İdarəsi | Neft-qaz nəqli | Fəaliyyət göstərir |
| Abşeron Qazma İşlər İdarəsinin Siyəzən Qazma Sexi | Neft-qaz quyularının qazılması | Fəaliyyət göstərir |
| Texnoloji Nəqliyyat Sexi | Nəqliyyat daşımaları | Fəaliyyət göstərir |
| “Tibet N” MMC | Qum,otsev,şeben,<br><br>çınqıl | Fəaliyyət göstərir |
| “Siyəzən kərpic zavodu” | kərpic | Fəaliyyət göstərir |
| “Asko LTD” Şirkəti | Qum,atsep,şebel, | Fəaliyyət göstərir |

| | | |
|---|---|---|
| | çınqıl | |
| “RİVAES” MMC | Qum,atsep,şebel,<br>çınqıl | Fəaliyyət göstərmir |
| Çınqıl-qırmadaş istehsalı müəssisəsi<br>(fiziki şəxs Cəlilov Azad Muradoğlu) | Qum,atsep,şebel,<br>çınqıl | Fəaliyyət göstərir |
| “Azərtikinti Quraşdırma Servis-23” ASC | Qum,atsep,şebel,<br>çınqıl | Fəaliyyət göstərir |
| “Siyəzən Polimer Sənaye Parkı” MMC | Plastik məmulatlar | Fəaliyyət göstərir |
| “Qazax Sement” MMC-nin Siyəzən Beton zavodu | Müxtəlif markalı beton | Fəaliyyət göstərir |
| Mebel sexi | Ofis üçün taxta mebellər | Fəaliyyət göstərir |
| Çınqıl-qırmadaş istehsalı müəssisəsi<br>(fiziki şəxs İlyasov Mütəllim Böyükağa oğlu) | Qum,atsep,şebel,<br>çınqıl | Fəaliyyət göstərir |
| “2 nömrəli YİI” MMC-nin asfalt zavodu | Asfalt-beton | Fəaliyyət göstərir |
| “Azpetrol” MMC | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |
| “Azpetrol” MMC | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |
| “Latoil” MMC | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |
| “SOKAR” Yanacaqdoldurma məntəqəsi | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |
| “Zaur Petrol” MMC | Neft məhsullarının pərakəndə satışı | Fəaliyyət göstərir |

**Mövcud istehsal sahələri (kənd təsərrüfatı məhsulları üzrə)**

| **İstehsal müəssisəsinin adı** | **İstehsal növü** | **Fəaliyyəti** |
|---|---|---|
| "Siyəzən-Broyler" MMC | Quş əti istehsalı | Fəaliyyət göstərir |
| "Merit Brand"("Caspian-Coast Winery and Vineryards") MMC | Müxtəlif növ şərab, konyak və araq | Fəaliyyət göstərir |
| Taxıl terminalı (fiziki şəxs Qardaşov Vüqar Saday oğlu) Tutumu 42 000 ton | Taxıl məhsulları | Fəaliyyət göstərir |
| "MMZ"MMC quşçuluq | Quş əti və yumurta istehsalı | Fəaliyyət göstərir |
| Quş əti istehsalı sexi (fiziki şəxs Qasımov Elsevər Əmirşah oğlu) | Quş əti istehsalı | Fəaliyyət göstərir |
| Un dəyirmanı (fiziki şəxs Şahpələngov Şirin Saməddin oğlu) | Un,kəpək | Fəaliyyət göstərir |
| "Bərəkət-97" | Çörək məmulatları | Fəaliyyət göstərir |

| | | |
|---|---|---|
| | | |
| Çörək bişirmə sexi (fiziki şəxs Babayev İlkin Rəhman oğlu) | Çörək məmulatları | Fəaliyyət göstərir |
| “Ocaq” un məmulatları sexi | Çörək məmulatları | Fəaliyyət göstərir |

**Torpaqların mülkiyyət bölgüsü barədə**

**Məlumat**

**Dövlət mülkiyyətində (hektarla) 19219**

**Bələdiyyə mülkiyyətində 36158**

**Xüsusi mülkiyyətdə 12628**

**Rayon üzrə kənd təsərrüfatı təyinatlı torpaq sahələri- 53,6 min ha**

Ondan kənd təsərrüfatına yararlı -38,9 min ha

Pay torpaqları -10, 898

**Əkin torpaqlarının cəmi -12,2 min ha**

**Çoxillik əkmə - 259**

**Biçənək -300**

**Dinc - 40**

**Suvarılan - 5334**

Əkin torpaqlarının 40,1%-i suvarılır (5,3 min ha).2014-2018-ci illərdə “Samur-Abşeron suvarma sistemlərinin yenidənqurulması”layihəsi çərçivəsində rayon ərazisində mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi layihəsi icra olunmuşdur.

Meyvə və giləmeyvə bağları - 940 ha

Üzüm bağları -61,81 ha

Bundan əlavə 11,29 ha üzüm bağları həyətyanı sahələrdədir.

**Siyəzən rayonunda iəd üzrə torpaq sahələri barədə**

**Məlumat**

| **İnzibati ərazi dairəsinin adı** | **Cəmi sərhəd daxili(ha)** | **Dövlət mülkiyyəti** | **Bələdiyyə mülkiyyəti** | **Xüsusi mülkiyyət** |
|---|---|---|---|---|
| **Beşdam** | **10128** | **1219** | **7168** | **1741** |
| **Zarat** | **8815** | **482** | **7389** | **944** |
| **Həmyə** | **4495** | **257** | **2378** | **1860** |
| **Yenikənd** | **8402** | **650** | **4145** | **3607** |
| **Məşrif** | **3616** | **591** | **1778** | **1247** |
| **Sədan** | **5526** | **1261** | **3568** | **697** |
| **Dağ Quşçu** | **2916** | **249** | **1883** | **784** |
| **Ərziküş** | **6762** | **140** | **5976** | **646** |
| **Eynibulaq** | **2005** | **73** | **1056** | **876** |
| **Siyəzən** | **933** | | **704** | **229** |
| **Gilgilçay** | **110** | | | |

**Dövlət və bələdiyyə mülkiyyətindən icarəyə verilmiş torpaq sahələri barədə məlumat əlavə edilir.**